# Marble Stucco

## Texniki Məlumat Səhifəsi

## Məhsul təqdimatı

Penguin Marble Stucco saf akrilik əsaslı, müxtəlif çeşiddə kvars və pigment ehtiva edən, məcun qatılığında, mala və ya spatula ilə səth və forması verilən, parlaq, su əsaslı, iysiz, dekorativ iç cəbhə boyasıdır.

- Penguin Marble Stucco mərmər effekti görünüşü verir.
- Yuxarı parlaqlıq qabiliyyətinə görə rənglər daha canlıdır.
- Penguin Marble Stucco'nun silinəbilən və su itələyici xüsusiyyəti var.
- Yuxarı su buxarı keçiriliyinə görə su buxarının çölə atılmasını və səthin nəfəs almasını asanlaşdırır.
- Su bazlı olduğu üçün insan sağlamlığına və ətraf mühitə ziyan vermir.

## İstifadə olunacaq səthlər

Penguin Marble Stucco binaların iç qısmindəki divarlara, suvaq, brüt beton kimi iç səthlərdə səth hazırlığından sonra istifadə oluna bilər.

## Fiziki xassələri

| | |
|---|---|
| **Rəng** | Su əsaslı rəng pastaları ilə rənglənə bilər |
| **Sıxlığı (gr/sm$^3$)** | 1.77±0.2 |
| **Özlülüyü** | 180±5 |
| **Parlaqlıq** | Parlaq |
| **İncəldici** | İncəldilmir |

## Səthin hazırlanması

Tətbiqdən öncə səth köhnə boya qalıqlarından, tozdan, kirdən və yağ qalıqlarından təmizlənməlidir. Düzgün bir səth əldə etmək üçün səthə üzlük məcun – Penguin Soft Coat vurulmalı, daha sonra lazım olarsa səth sumbata olunmalıdır. Səth Penguin Decoprimer ilə astarlanmalıdır. Səth tempraturu 5-30$^0$C arasında olmalıdır, nisbi rütubət 80%-i keçməməlidir.

## İstifadə təlimatları

- Penguin Marble Stucco incəldilmədən homogen olaraq qarışdırılmalıdır.
- Birinci qat mala və ya fırça ilə vurulur; səthdə istənilən bağlama əldə edilməyibsə, ikinci qat vurula bilər.
- İkinci qat mala və ya fırça ilə vurulur və mala ilə istənilən effekt verilib tamamlanır.
- Vurulmadan 24 saat tam quruduqdan sonra, səth incə zımpara ilə zımparalanır və üzərinə spatula və ya mala ilə istənilən effekt verilir. Səth mala ilə üzərinə təzyiq edilərək parlaqlaşdırılır. Daha parlaq görüntü əldə etmək üçün Penguin Marble Stucco WAX istifadə edilir.
- Vurulma vaxtı və sonrakı 24 saat ərzində, otaq tempraturu ən az +5 °C, ən çox +35 °C olmasına diqqət edilməlidir.

## Quruma zamanı

Quruma zamanı əsasən hava şərtlərinə, çəkilən qat qalınlığına və çəkilən qat sayına bağlıdır. Aşağıdakı cədvəldə boyanın hava temperaturundan asılı olaraq təqribi quruma zamanı göstərilmişdir.

- Boyanacaq ərazi yaxşı havalandırılmalıdır (Açıq hava və ya sərbəst hava dövretməsi)

# Marble Stucco
## Texniki Məlumat Səhifəsi

- Boya məsləhət edilən qalınlıqda vurulmalıdır
- Qalınlıq vurulacaq qatların sayı nəzərə alınaraq vurulmalıdır.

| **Havanın tempraturu** | **$10^0$C** | **$23^0$C** |
|---|---|---|
| **Üst quruma** | 10 saat | 5 saat |
| **Tam (sərt) quruma** | 40 saat | 24 saat |
| **İkinci qatın vurulması, ən az** | 12 saat | 6 saat |

Yuxarıda göstərilmiş məlumatlar qaydalara əməl olunmaqla müəyyən olunmuşdur. Quruma vaxtı film qalınlığına, havalandırmaya, səthdə var olan boya sisteminə, boyanın keçirdiyi əməliyyatlara bağlı olaraq arta və ya azala bilər.

### Boya sərfiyatı

- 1 Litr ilə 2.85 – 4.30 $m^2$,
- 1 kg ilə 1.65 – 2.50 $m^2$ səth boyanır.
- 1 $m^2$ lik səth üçün boya sərfiyatı 230-350 ml ve 400-600 qr-dır.

### Saxlama şərtləri

Boya quru, sərin, yaxşı havalandırılmış, birbaşa günəş şüaları düşməyən depolarda, +5˚C ile +35˚C arasında qapağı açılmamış halda saxlanma müddəti 3 ildir. İstifadə etməzdən öncə yaxşı qarışdırılmalıdır.

### Qablaşdırılma şəkli

4 kq, 12 kq və 25 kq-lıq plastik qablarda istehsal olunur.

### Tətbiq edən operator

Bu məhsul professional istifadə üçün nəzərdə tutulub. Tətbiq edən şəxs və ya operator təcrübəli və məhsul barədə məlumatlı olmalıdır. Sözü gedən şəxs boyanı tələbnaməyə uyğun olaraq qarışdırmalı və tətbiq etməlidir. Tətbiqdə iştirak edən işçilər təhlükəsizlik avadanlıqları ilə təmin olunmalıdır.

### Diqqət

Yuxarıdakı məlumatlar laboratoriya sınaqları və sahə tətbiqlərində əldə olunan nəticələr əsasında hazırlanmışdır. Şirkətin idarəsi xaricində olan tətbiqetmələrdə şirkət sadəcə boyanın keyfiyyətinə cavabdehdir. Tətbiqetmə və tətbiqetmə xətalarından yarana biləcək problemlərə görə cavabdehlik daşımır.

### Sağlamlıq və təhlükəsizlik qaydaları

Qabın üzərində göstərilən qaydalara riayət edin. Yüksək temperatur və qığılcım çıxma ehtimalı olmayan depolarda saxlayın. Yaxşı havalandırılan ərazilərdə istifadə edin. İstifadə zamanı dəriylə təmas olmuşdursa, uyğun həlledici ilə sonra su və sabunla yuyulmalıdır. Gözə düşdüyündə bol su ilə yuyulub gərək olduğunda tibbi müdaxilə olunmalıdır.

**H317** Allergik dəri reaksiyasına səbəb ola bilər.

# Marble Stucco

## Texniki Məlumat Səhifəsi

**P272** Çirklənmiş iş geyimləri iş yerindən xaricə buraxılmamalıdır.
**P280** Qoruyucu əlcək/qoruyucu geyim/göz qoruyucusu/üz qoruyucusu geyin.
**P302 + P352** Dəridə təsirlər: Bol sabun və su ilə yuyun.
**P333 + P313** Dəridə qıcıqlanma və ya səpgi baş verərsə: Tibbi məsləhət/diqqət alın.
**P363** Yenidən istifadə etməzdən əvvəl çirklənmiş paltarları yuyun.

---

***Qeyd:*** *"CMT GROUP" MMC şirkəti xəbərdarlıq etmədən texniki məlumat səhifəsindəki məlumatları dəyişdirmə hüququnu özündə saxlayır.*

---

**"CMR GROUP" MMC**
Ünvan: Badamdar şos. 27, Bakı, Azərbaycan
Tel: (+994 12) 345 04 05
Faks: (+994 12) 345 04 06
E-mail: office@cmt.com.az
Web-site: www.penguin.az